# Milli fizika elminin qərargahı

## *Fizika İnstitutunun 80 illik yubileyi qeyd olunub*

**21 noyabr 2025-ci il tarixdə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutunda institutun 80 illik yubileyi münasibəti ilə tədbir keçirilib.**





Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi, Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi dərin ehtiramla bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə institutun baş direktoru, akademik Arif Həşimov açıb və əməkdaşları yubiley münasibətilə təbrik edib. Akademik Arif Həşimov çıxışında Fizika İnstitutunun 80 illik fəaliyyəti haqqında məlumat verib.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti akademik İsa Həbibbəyli məruzə ilə çıxış edib. O çıxışında AMEA-nın yaranma tarixi və Fizika İnstitutunun Azərbaycan elminin yaranmasında və inkişafında tutduğu yer haqda toplantı iştirakçılarına ətraflı məlumat verib. Akademik Fizika institutunun apardığı elmi tədqiqatların və onların tətbiqi sahəsində təkcə keçmiş SSRİ miqyasında deyil, o cümlədən dünya miqyasında layiqli yer tutduğunu vurğulayıb. Akademik çıxışında Nobel mükafatı laureatı Jores Alfyorovun fikrinə istinad edərək akademik Həsən Abdullayevin Azərbaycanda fizika elminin inkişafına və ümumilikdə elmin təşkilinə verdiyi böyük töhfəni nəzərə alaraq bu nəhəg elm fədaisinin Nobel mükafatına layiq olduğunu bildirib. Akademik İsa Həbibəyli Azərbaycanda yarımkeçiricilər fizikası, onların əsasında müxtəlif sahələri əhatə edən tətbiqi nailiyyətlərin qazanılması Fizika İnstitutunun keçdiyi uzun ömür tarixində qazandığı nailiyyətdir və sərvətdir. İnstitut bu gün də nailiyyətləri ilə Azərbaycan elmində avanqard rolunu oynayır.

Akademik Akif Əlizadə çıxışında akademik Həsən Abdullayevin Fizika İnstitutunun yaranmasında misilsiz rol oynamasını və onun yaratdığı məktəbdən ətraflı məlumat verib.

AMEA-nın müxbir üzvü Misir Mərdanov Fizika İnstitutunu 80 illik yubiley münasibətilə təbrik edərək xoş arzularını bildirib.

Akademik Əli Abbasov Fizika institutunda GRİD Mərkəzinin yaradılması sahəsində aparılan işlərda böyük məmnuniyyətlə şəxsi töhfəsini və dəstəyini verməyə çalışdığını bildirib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev tədbir iştirakçılarını 80 illik yubiley münasibətilə təbrik edib. Bakı Dövlət Universiteti ilə Fizika İnstitutu arasında ənənəvi olaraq əməkdaşlığın mövcud olduğunu bildirib.

Milli Aviasiya Akademiyasının prorektoru Ədalət Səmədov Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin təbriklərini Fizika İnstitutunun kollektivinə çatdırıb. Milli Aviasiya Akademiyasının fizika elmini əhatə edən sahəsində hazırda Fizika İnstitutunda yetişmiş xeyli sayda əməkdaşın çalışdığını bildirib.

Sumqayıt Dövlət Universitetinin rektoru Əminağa Sadıqov və akademik Abel Məhərrəmov da çıxış edərək Fizika institutunu təbrik edib. Fizika İnstitutunun Azərbaycan elminin yaranmasında və formalaşmasında müstəsna yer tutduğunu qeyd ediblər.

Tədbirin sonunda ölkə daxilindən və xaricdən onlayn formatda 10-dan artıq elmi-tədqiqat və ali təhsil müəssisəsini təmsil edən alimlərin təbrik nitqləri səsləndirilib.

Tədbir iştirakçıları Fizika institutunun qazandığı nailiyyətləri özündə əks etdirən sərgi ilə tanış olublar.

Elm .- 2025.-28 noyabr (№38).- S.5.